Şəmsəddin
ŞƏRİFOV

## CİBDƏ PUL OLMAYANDA

Ağır keçir güzəran,-
Cibdə pul olmayanda.
Qarışır dağla aran,-
Cibdə pul olmayanda.

Evdə olur qalmaqal,
Tam dəyişir hal- əhval,
Küskün olur xoş amal,-
Cibdə pul olmayanda.

Dostlar salam almayır,
Səni yada salmayır,
Evdə bir şey qalmayır,-
Cibdə pul olmayanda.

## VURMA ÜZƏ

Naəlaca kömək etmək
Hər bir zaman borcdur bizə.
Kimsəsizə kara gəlmək
İnsanlıqdır, vurma üzə.

Qaçqınlara bir kisə un,
Verdim deyə haray çəkmə.
Bir fəqirin əyninə don
Aldım deyə tüğyan etmə.

Birin ona, yüz özünə,
Keyfini çək, görən yoxdur.
Haram olsun, sox gözünə,
Xalqın gözü hələ toxdur.

Dinmir kimsə bu oyuna,
Başqa çarə hələ yoxdur.
Qaçqın adın kölgə edən
Vicdansızlar hələ çoxdur.

## BİQEYRƏT DƏ DAŞIYIR

*Ağlı dayaz, gözü kölgə olanlar,*
*Yanmaz heç vaxt bu dünyanın halına.*
*Hər fitnəyə inanaraq uyanlar,*
*Güvənməsin harayına, varına.*
*Qadir Allah, nə yaxşı ki sən varsan,*
*Yoxsa xilqət bir-birini didərdi.*
*Din-imandan qorxmayaraq insanlar,*
*Çox qəddarlıq, amansızlıq edərdi.*
*Sən yaratdın yeri, göyü bizimçün,*
*Min bir nemət, min bir ruzi yetirdin.*
*Ağıl, kamal, vicdan, namus verərək,*
*Bu dünyaya insanları gətirdin.*
*Ömür sürüb biz dünyanı tanıdıq,*
*Kimi xalis, kimi naqis yaşayır.*
*Hamı üçün bir ölçüyə verilən,*
*İnsan adın biqeyrət də daşıyır.*
*Ulu Tanrı, şikayətim sənədir,*
*Hər bir kəsin iç üzünü sən tanıt.*
*Qəlbiqara bədxahları bilmək üçün,*
*Bu sadəlövh insanları sən ayılt.*

**Qusar**